UOT 342.7

**Əliyev Nazim Kazım oğlu**
**İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin**
**Tədris Mərkəzinin Elm,innovasiya və əməkdaşlıq şöbəsinin rəisi,**
**hüquq üzrə elmlər doktoru**

# Vicdan azadlığı dövlət və din münasibətləri müstəvisində

*Məqalə vicdan azadlığı hüququnun anlayışı, konstitusion hüquqi təminatı, hüdudları, məhdudiyyətlərinə həsr olunmuşdur. Avropanın bir sıra dövlətlərinin qanunvericiliyi və məhkəmə təcrübəsi, habelə Avropa İnsan hüquqları üzrə Məhkəməsinin mövqelərində vicdan azadlığı, dövlət və din münasibətlərinin tənzimlənməsi vəziyyətinə nəzər yetirilir.*

***Açar sözlər**: vicdan azadlığı, dövlət, din, hüquq, konstitusiya, qanunvericilik, məhkəmə.*

Azərbaycan Respublikası Prezidenti cənab İ.H.Əiyev 10 yanvar 2017-ci il tarixdə "2017-ci ilin Azərbaycan Respublikasında "İslam Həmrəyliyi İli" elan edilməsi haqqında" Sərəncam vermişdir. Sərəncamda Azərbaycanın uzun əsrlərdən bəri İslam sivilizasiyasının əsas mərkəzlərindən biri olduğu, islam dininin yayılmasında, müsəlman intibahının bərqərar olmasında mühüm rol oynadığı qeyd edilmişdir. Azərbaycan Respublikasının İslam Əməkdaşlıq Təşkilatının, İSESKO-nun, həmçinin müsəlman ölkələrini birləşdirən digər mötəbər qurumların üzvü seçilərək İslam aləmi ilə qarşılıqlı faydalı münasibətlər qurduğu, qlobal əhəmiyyətli bir sıra mühüm mədəni forumların təşkilatçısı kimi çıxış etdiyi göstərilmişdir. Azərbaycan tolerantlıq mühitinin təşəkkül tapmasına, multikulturalizmin, mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun qurulmasına, islam dəyərlərinin dünyada təbliğinə böyük töhfələr vermişdir. Azərbaycanın İslam aləmində qazandığı nüfuz 2009-cu ildə Bakı və 2018-ci ildə Naxçıvan şəhərlərinin İslam mədəniyyətinin paytaxtı elan olunmasında öz ifadəsini tapmışdır. IV İslam Həmrəyliyi Oyunlarının 2017-ci ildə Bakı şəhərində keçirilməsi ilə bağlı qərar isə ölkəmizin İslam həmrəylinin möhkəmləndirilməsi sahəsində növbəti əməli addımlar atması üçün əlverişli şərait yaradır. Odur ki, dövlət başçısı İslam həmrəyliyinin bərqərar olmasında Azərbaycanın özünəməxsus mövqeyinin möhkəmləndirilməsini təmin etmək məqsədi ilə 2017-ci ili Azərbaycan Respublikasında "İslam Həmrəyliyi İli" elan etmişdir (1).

Ölkəmiz uzun müddət keçmiş Sovet İttifaqının tərkibində olduğundan, vicdan azadlığı, din və dövlət münasibətlərinin tənzimlənməsində harmonik əlaqə olmamış, konstitusiya səviyyəsində dövlətin dindən ayrılması və dini işlərə müdaxilə etməməsi bəyan edilsə də, reallıqda ateizm təbliğatı aparılmış, xüsusən, islam dininə münasibətdə diskriminasiya mövcud olmuşdur. Müstəqilliyini bərpa etmiş müasir Azərbaycan Respublikasında insanların öz dini inanclarına sərbəst surətdə etiqad etmələri üçün hər cür şərait yaradılmışdır. Mədəniyyətlərarası dialoqun və dinlərarası əməkdaşlığın inkişaf etdirilməsi sahəsində görülən işlərin nəticəsidir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Moskvanın və bütün Rusiyanın Patriarxı Kiril tərəfindən Birinci dərəcəli "Şərəf və

şöhrət” ordeni ilə, Vatikan dövlətinin ən yüksək mükafatlarından sayılan “Medalla Sede Vacante” medalı ilə təltif edilmişdir.

Azərbaycanın Birinci vitse-prezidenti, birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva tərəfindən də öz növbəsində mədəniyyətlərarası dialoqun və dinlərarası əməkdaşlığın inkişaf etdirilməsi sahəsində xeyli işlər görülmüşdür. 2002-ci il iyunun 22-də Romada Mehriban Əliyeva və Vatikanın mədəniyyət naziri, Roma Papasının Müqəddəs Arxeologiya üzrə Şurasının sədri kardinal Can Franko Ravazinin iştirakı ilə Heydər Əliyev Fondu ilə Müqəddəs Taxt-Tac arasında “Roma katakombalarının bərpasına dair ikitərəfli Saziş” imzalanmışdır. Roma Papası Fransis Heydər Əliyev Fondunun dəstəyi ilə Roma katakombalarının bərpasını yüksək qiymətləndirmişdir. Fransanın “Ouest-France” qəzetində Heydər Əliyev Fondunun istər Azərbaycanda, istərsə də dünyanın başqa ölkələrində həyata keçirdiyi xeyirxahlıq missiyasından bəhs edən məqalə çap olunmuşdur. Burada Mehriban Əliyevanın doğma vətənində təhsilə və səhiyyəyə xüsusi qayğı göstərməklə yanaşı, bir çox xarici ölkələrdə də xeyirxahlıq missiyası həyata keçirdiyi qeyd edilmişdir. Fondun Vatikan kitabxanasında kitabların kataloqunun tərtib edilməsində, Strasburqdakı ən qədim kafedralın freskasının təmirində yaxından iştirak etdiyi, Orn departamentində onlarla tarixi abidənin bərpasına yardım göstərdiyi vurğulanmışdır. Məqalədə demokratik yolla inkişaf edən Azərbaycanın tolerant və dünyəvi ölkə olduğu, burada bir çox xalqların, o cümlədən yəhudilərin və xristianların ölkənin bərabərhüquqlu vətəndaşları kimi yaşadıqları göstərilmişdir (6).

Bununla belə, ölkəmizdə vicdan azadlığı, dövlət və din münasibətləri sahəsində hər hansı bir problemin olmadığını göstərmək düzgün olmazdı. Bu, özünü, xüsusən, dini ayin, dini etiqad, dini mərasim, dini məzhəb, din xadimi, peşəkar dini fəaliyyət ilə məşğul olma və sair bu kimi müddəalar haqqında dəqiq və birmənalı anlayışların olmamasında göstərir. Məsələn, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun 21 oktyabr 2005-ci il tarixli qərarı ilə «din xadimi» anlayışı ilə bağlı qanunvericilik normalarının düzgün tətbiq edilməməsi və şərh olunmaması, tətbiq edilməli olmayan normativ-hüquqi aktın tətbiq edilməsi əsası ilə Azərbaycan Respublikası Ali Məhkəməsinin 26 sentyabr 2005-ci il tarixli qərarı qüvvədən salınmışdır (4). Tələbələrin hicabdan istifadə etməsi ilə əlaqədar dərsə buraxılmamaları, vətəndaşların vicdan azadlığını nəzərdə tutan hüquq normalarının ümumi yurisdiksiya məhkəmələrində bəzən düzgün tətbiq edilməməsi və s. hallar ilə bağlı problemlərin olduğu qeyd edilməlidir.

Bəzən hətta Konstitusiya Məhkəməsi səviyyəsində probem öz həllini tapmır və vətəndaşlar İnsan hüquqları üzrə Avropa Məhkəməsinə müraciət etmək məcburiyyətində qalırlar. Məsələn, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Qafqaz Müsəlmanları İdarəsinin təhsil şöbəsinin müdiri, Qazılar Şurasının üzvü və Bakı İslam Universitetinin Sumqayıt filialının rəhbəri vəzifələrində işləmiş, 2002-ci ildən nəşr olunmuş və İslam dini məzmunlu müxtəlif məqalələri dərc etmiş «Kəlam» jurnalının təsisçisi və baş redaktoru olmuş M.Seyidzadənin müraciəti üzrə «peşəkar dini fəaliyyət ilə məşğul olma» və s. məsələlər üzrə qərar qəbul etməmiş və o, Avropa İnsan hüquqları üzrə məhkəməyə müraciət etmişdir. Avropa İnsan hüquqları üzrə Məhkəmənin M.Seyidzadənin

müraciəti üzrə qəbul etdiyi 03 dekabr 2009-cu il tarixli qərarda onun din xadimlərinin seçkidə namizədliyini irəli sürməyə və seçilməyə maneə törətməməsinə namizədliyini irəli sürdükdə deyil, Milli Məclisə seçildiyi halda dini fəaliyyətlərinə xitam verilməsinə dair dəlili nəzərə alınaraq göstərilmişdir ki, dövlətdaxili qanunvericiliyin müddəaları din xadimlərinin passiv seçki hüququndan (seçkidə namizədliyini irəli sürmək hüququ) məhrum olunub olunmaması məsələsi, həm də yalnız uyğun gəlməyən vəzifələri (seçildiyi halda "peşəkar dini fəaliyyətin" parlament üzvü vəzifəsi ilə eyni zamanda həyata keçirilməsi) tutduqları halda diskvalifikasiya oluna bilmələri məsələsinin hər ikisinə zidd görünə bilər. Azərbaycan Respublikası Seçki Məcəlləsinin 14.2-ci maddəsi yalnız "din xadimlərinin" deyil, həmçinin dövlət qulluqçularının seçki hüquqlarını eyni şəkildə məhdudlaşdırsa da, dövlət qulluqçuları 2005-ci ildə keçirilmiş parlament seçkilərinə namizəd qismində qeydə alınmış və seçilmişdir. Buna görə də Avropa İnsan hüquqları məhkəməsi dövlətdaxili qanunvericiliyin kifayət qədər aydın və dəqiq olmadığını göstərmişdir. Qanunvericilik, xüsusən, kimin "din xadimi" qismində qiymətləndirilməsi və nəyin "peşəkar dini fəaliyyəti" təşkil etdiyinə dair hər hansı anlayış nəzərdə tutmamışdır. "Peşəkar dini fəaliyyət" termininin daha qeyri-müəyyən olduğunu və kifayət qədər geniş təfsirə imkan verdiyini nəzərə alaraq, bu terminin yalnız ruhanilərin və ya başqa ruhani vəzifələri tutan şəxslərin (o cümlədən, imamlar, keşişlər və ya ravvinlər kimi) əsas fəaliyyətini ehtiva etdiyini, yaxud dinlə bağlı ruhani qismində təsfir edilməyən başqa fəaliyyətlərin və ya dini tərəfdarların kütləsi (məsələn, dini mövzular barədə yazan publisistlərin fəaliyyəti və ya dini məsələlərdə formalaşan pedaqoji fəaliyyət kimi) ilə birbaşa əlaqələrin dairəsinə şamil olunub olunmadığı aydın deyildir. "Dini fəaliyyət" termini ilə birgə istifadə olunmuş "peşəkar" termininin mənasının da aydın olmadığı qeyd edilmişdir. Xüsusən, bunun ödənilən dini xidmətlərin təqdim olunmasına aid rəsmi vəzifə və ya formal işə aid olunması, yaxud adi mənasında mütləq şəkildə ödənilən işi təşkil etməyən tam və ya natamam iş vaxtının hər hansı başqa formasını nəzərdə tutmasının aydın olmadığı göstərilmişdir. "Din xadimi" və "peşəkar dini fəaliyyət" terminlərinin qanunvericilik anlayışının olmamasının seçki orqanlarına geniş mülahizə verdiyi və məhdudiyyətin tətbiqində qanunsuzluq etməyə imkan verdiyi qeyd edilmişdir. Məhkəmənin rəyinə görə M.Seyidzadə "peşəkar dini fəaliyyət" kimi qiymətləndirilə bilən bütün vəzifələrdən çıxsa da, dövlət orqanları onun bu fəaliyyətlə məşğul olan "dini xadim" olmasını təsdiq edən əsasları göstərmədən müraciətini qanunsuz olaraq rədd etmişlər. Halbuki o, seçkidə namizədliyini irəli sürə bilməsi üçün vəzifələrdən çıxmışdır. Seçki Komissiyaları onun "peşəkar dini xadim kimi fəaliyyətinə davam etdiyini" göstərərkən konkret hansı fəaliyyət ilə məşğul olduğunu qeyd etməmişlər. Məhkəmələr isə sadəcə "vəzifələrdən çıxma faktı peşəkar dini fəaliyyətlə məşğul olmanı istisna etmir" fikrini qeyd etməklə kifayətlənmişlər. Odur ki, Avropa Məhkəməsi M.Seyidzadəyə münasibətdə Konvensiyanın 1 saylı Protokolunun 3-cü maddəsinin (azad seçki hüququ) pozulduğu qənaətinə gəlmişdir (7).

İnsan hüquq və azadlıqlarının, o cümlədən vicdan azadlığının təmin olunması demokratik cəmiyyət və dövlətin ümumi inkişafının təməl prinsiplərindən biridir. İnanclı insanların dini etiqad azadlığının məhdudlaşdırılması konstitusion hüququn

pozulması sayılır. Azərbaycan Respublikası Konstitusiyasının 48-ci maddəsinə əsasən hər kəsin vicdan azadlığı vardır. Hər kəsin dinə münasibətini müstəqil müəyyənləşdirmək, hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmək, yaxud heç bir dinə etiqad etməmək, dinə münasibəti ilə bağlı əqidəsini ifadə etmək və yaymaq hüququ vardır. Dini mərasimlərin yerinə yetirilməsi ictimai qaydanı pozmursa və ya ictimai əxlaqa zidd deyildirsə, sərbəstdir. Dini etiqad və ya əqidə hüquq pozuntusuna bəraət qazandırmır. Heç kəs öz dini etiqadını və əqidəsini ifadə etməyə (nümayiş etdirməyə), dini mərasimləri yerinə yetirməyə və ya dini mərasimlərdə iştirak etməyə məcbur edilə bilməz.

Vicdan azadlığı, adətən, vətəndaşların istədikləri dinə sitayiş etmək və ya heç bir dini qəbul etməmək mənasında anlaşılır. Vicdan azadlığının təmin olunması insanın inancı və öz həyat tərzini bu inanca uyğun qurması ilə bağlı sərbəstliyi ilə şərtlənir. Hər kəs öz dini inancını ifadə etməkdə sərbəst olmalıdır. Din və vicdan azadlığı əslində insan haqlarının ayrılmaz hissəsidir. Vətəndaşların vicdan azadlığının pozulması yalnız inanclı təbəqənin problemi deyil, ümumi insan haqları probleminin bir hissəsidir. Bu problemin kəskinliyi hüquqi dövlət anlayışını sarsıdır, vətəndaş cəmiyyəti quruculuğuna mane olur. Sözün geniş mənasında vicdan azadlığı insanın fəaliyyəti, əməlləri və davranışına görə cəmiyyət və mənliyi qarşısında mənəvi məsuliyyətini, dar mənasında isə insanların dinə münasibətdə sərbəstliyini nəzərdə tutur. Vicdan azadlığı istənilən dini seçib ona riayət etmək və ya heç bir dinə inanmamaq, yəni ateist mövqedə durmaq hüququnun təmin edilməsi kimi iki vacib prinsiplə müəyyən edilir.

Vicdan azadlığı həmçinin dözümlülük kontekstində nəzərdən keçirilməlidir. Dözümlülük - müxtəliflikdə harmoniyadır. Dözümlülük dünya mədəniyyətinin zəngin müxtəlifliyinə, özünü ifadə formalarına və insan fərdiliyinin təzahür üsullarına hörmət edilməsini, onların qəbul edilməsini və düzgün anlaşılmasını ifadə edir və buna bilik, açıqlıq, ünsiyyət, fikir, vicdan, etiqad azadlığı imkan yaradır. Lakin dözümlülük heç də güzəşt, yumşaqlıq və ya görməməzlik deyildir. Dözümlülük, hər şeydən əvvəl, insanın universal hüquqlarının və əsas azadlıqlarının tanınması əsasında formalaşan aktiv münasibətdir. Dözümlülük heç bir halda bu əsas dəyərlərə qəsd etməyə bəraət verə bilməz. İnsan hüquqlarına hörmət etməyə uyğun olan dözümlülüyün təzahürü sosial ədalətsizliyə dözümlü münasibəti, öz etiqadından imtina edilməsini və ya özgənin etiqadına təslim olmanı ifadə etmir. Bu, təkcə mənəvi borc deyil, həm də siyasi və hüquqi tələbat olaraq hər kəsin etiqad azadlığını və digərlərinin bu hüququ tanımasını ifadə edir.

Vicdan azadlığı dini etiqad azadlığının tərkib hissəsi sayılır. Dövlətlərin inkişaf tarixinin ilk dövrlərində vicdan azadlığı əhalinin hakim din ilə yanaşı, digər dinlərə də etiqad etmək hüququ kimi tanınırdısa, burjua inqilablarından sonra vicdan azadlığı dövlətdə hakim olan dindən asılı olmayaraq, istənilən dinə etiqad etmək hüququ tanındı. Dini etiqad azadlığı vətəndaşın istənilən dini seçməkdə sərbəst olması hüququnu nəzərdə tutur. Vicdan azadlığı anlayışına dini etiqad azadlığından əlavə ateizm anlayışı da daxildir və daha çox fikir azadlığına yaxındır. Bu baxımdan vicdan azadlığı din ilə möhkəm bağlı olsa da, onunla eyni deyildir. Vicdan azadlığı əslində şəxsiyyətin mənəvi-etik baxışlarının azadlığıdır.

Vicdan azadlığı, şübhəsiz, dövlət və din münasibətləri ilə əlaqəlidir. Azərbaycan Respublikasının Konstitusiyasında din və dövlət münasibətlərinin tənzimlənməsinin mütərəqqi hüquqi əsasları müəyyən edilmişdir. Konstitusiyanın "Din və dövlət" adlanan 18-ci maddəsində göstərilmişdir:

I. Azərbaycan Respublikasında din dövlətdən ayrıdır. Bütün dini etiqadlar qanun qarşısında bərabərdir.

II. İnsan ləyaqətini alçaldan və ya insanpərvərlik prinsiplərinə zidd olan dinlərin (dini cərəyanların) yayılması və təbliği qadağandır.

III. Dövlət təhsil sistemi dünyəvi xarakter daşıyır.

Bu konstitusion müddəa əslində Azərbaycan Respublikası dövlətinin siyası məzmununu müəyyən edir. Dini qurum və birliklər dövlətdən ayrıdır, dövlət özünə aid məsələlərin həllini dini qurumlara tapşırmır və onların fəaliyyətinə qarışmır. Bütün dinlər və dini qurumlar qanun qarşısında bərabərdir. Heç bir din (dini cərəyan) və dini qurum barəsində digərlərinə nisbətən üstünlük və ya məhdudiyyət müəyyən edilə bilməz. Dini mənsubiyyətə görə vətəndaşların hüquqlarının məhdudlaşdırılması yolverilməzdir. Lakin dünyəvilik heç də dini inkar etmək deyildir, çünki din insanların cəmiyyət qarşısında məsuliyyətini artırır. Digər tərəfdən, hər bir dövlətin tarixən imanlı, əqidəli vətəndaşlara ehtiyacı olmuş və bu gün də belədir. Səmavi dinlər, o cümlədən islam təkcə ayrı-ayrı millətlərin və cəmiyyətlərin mənəvi həyatına deyil, dövlət və hüquq sistemlərinin inkişafına da öz müsbət təsirini göstərmişdir. Təsadüfi deyildir ki, müasir dünyanın əsas hüquq sistemlərindən biri dini hüquq sistem olan müsəlman hüququdur.

Ölkəmizdə vicdan azadlığını təmin edən normativ-hüquqi aktlar içərisində "Dini etiqad azadlığı haqqında" 20 avqust 1992-ci il tarixli qanun xüsusi yer tutur. Qanun dövlət və dini qurumlar, din və məktəb, dini icma, dini idarə və mərkəzlər, dini təhsil, dini qurumların dövlət qeydiyyatına alınması, onların ləğvi, dini qurumların mülkiyyəti, istehsal və təsərrüfat fəaliyyəti, dini ayin və mərasimlərin keçirilməsi, ümumiyyətlə, din və onunla əlaqəli olan təsisatlar arasında olan münasibətləri tənzim edir. Vicdan azadlığına dair müddəaların həyata keçirilməsi üçün respublikamızda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yaradılmışdır. Komitənin əsas vəzifələri sırasına dini etiqad azadlığının həyata keçirilməsi üçün müvafiq şəraitin yaradılması, dini qurumların Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada dövlət qeydiyyatının aparılması, bu qurumların nizamnamələrinə müvafiq dəyişikliklər və əlavələr edilməsinin təmin olunması, dini qurumların xahişi əsasında dövlət orqanları ilə razılaşmalar əldə edilməsində və dövlət orqanları tərəfindən həlli tələb olunan məsələlərdə dini qurumlara lazımi yardım göstərilməsi, müxtəlif dini etiqadların dini qurumları arasında qarşılıqlı anlaşmanın və bir-birinə dözümkü və hörmətli münasibətin möhkəmlənməsinə kömək edilməsi, dini zəmində qarşıdurma və ayrı-seçkilik hallarının, digər mənfi təzahürlərin qarşısının alınması daxil edilmişdir.

Azərbaycan Respublikasının 30 iyun 2009-cu il tarixli 841-IIIQD nömrəli Qanunu ilə «Dini etiqad azadlığı haqqında» qanunun «dini icma» adlanan 8-ci maddəsinə aşağıdakı məzmunda üçüncü hissə əlavə edilmişdir: «İslam dininə aid ibadət yerlərinə rəhbərlik edən din xadimləri müvafiq icra hakimiyyəti orqanına məlumat verilməklə Qafqaz Müsəlmanları İdarəsi tərəfindən təyin edilir». Bu

müddəa ölkəmizdə ən böyük dini qurum olan Qafqaz Müsəlmanları İdarəsinin yerlərdəki dini ibadət məkanlarına rəhbərlik edən din xadimlərinin öz vəzifələrini daha düzgün şəkildə yerinə yetirmələri üçün yerli icra hakimiyyətləri ilə qarşılıqlı əlaqələrini təmin etmiş olur.

Müasir dövrdə Azərbaycan Respublikası Konstitusiyasının 18-ci maddəsində dövlət təhsil sisteminin dünyəvi xarakter daşımasını nəzərdə tutan müddəasına ehkam kimi yanaşılması düzgün olmazdı. Avropa ölkələrinin qanunvericilik və məhkəmə təcrübəsi də bu cür qənaətə gəlməyə əsas verir. Məsələn, dövlət məktəblərində dini simvolların mövcudluğuna münasibətdə Avropa Şurası üzv dövlətlərinin qanunvericiliyinin və təcrübəsinin icmalı ilə tanışlıq belə deməyə əsas verir ki, onların böyük əksəriyyətinin dövlət məktəblərində dini simvolların mövcudluğu tənzimlənmir. Dövlət məktəblərində dini simvolların mövcudluğu az sayda dövlətdə qadağan olunmuşdur. Məsələn, keçmiş Yuqoslaviya Respublikası, Makedoniya, Fransa (Elzas və Morel departamenti istisna olmaqla) və Gürcüstanda. Dövlət məktəblərində dini simvolların mövcudluğu isə İtaliya, Avstriya, Almaniyanın bir neçə inzibati regionu (torpaqları) və İsveçrənin bir neçə regionu (komuna) və Polşada birbaşa nəzərdə tutulmuşdur. Bəzi dövlətlərdə (İspaniya, Yunanıstan, İrlandiya, Malta, San-Marino və Rumuniyada) bu məsələ xüsusi nizamlanmasa da, dövlət məktəblərində dini simvollara rast gəlinir.

Məsələyə bəzi Avropa dövlətlərin hətta Ali Məhkəmələri səviyyəsində baxılmışdır. Məsələn, İsveçrə Federal Məhkəməsinin mövqeyinə görə konstitusiyada əks olunmuş konfessional neytrallıq tələbləri ilə ibtidai məktəb siniflərində çarmıxın asılması məzmununu nəzərdə tutan komunal ordanansın mövcudluğu bir araya sığmır. Lakin məhkəmə məktəbin digər hissələrində çarmıxın mövcudluğunu tənqid etməkdən çəkinmişdir (26 sentyabr 1990-cı il). Almaniya Federal Konstitusiya Məhkəməsi müəyyən etmişdir ki, məktəb divarlarında çarmıxın asılması dövlətin neytrallıq prinsipinə ziddir və katolik olmayan uşaqların dini azadlığına uyğun gəlmir (16 may 1995-ci il). Rumuniya Ali Məhkəməsinin mövqeyinə görə dini simvolların ümumtəhsil müəssisələrində nümayişi haqqında qərar müəllimlər, şagirdlər və valideynlərinin birgə iştirakı ilə qəbul olunmalıdır (11 iyun 2008-ci il). İspaniya Kastiliya və Leonun Yüksək Ədalət Məhkəməsi qərara almışdır ki, şagirdlərin valideynlərinin birbaşa tələbi olduqda məktəblər dini sinvolları kənarlaşdırmalıdırlar (14 dekabr 2003-cü il).

Avropa Insan Hüquqları Məhkəməsinin Lautsi və digərlərinin İtaliyaya qarşı şikayəti üzrə qəbul etdiyi 18 mart 2011-ci il tarixli Qərarı bu baxımdan diqqətəlayiqdir. İş İtaliya vətəndaşı Soyle Lautsinin İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqında Konvensiyanın 34-cü maddəsinə müvafiq olaraq İtaliya Respublikasına qarşı verdiyi 30814/06 saylı şikayəti əsasında 27 iyul 2006-cı ildə başlanmışdır. Sonradan bu işə onun iki oğlu Datayko və Sami Albertin də qoşulmuşdur. Onlar 2001-2002-ci dərs ilində "Vittirino da Feltre dövlət ümumtəhsil məktəbi"ndə, Albano Terme dövlət məktəbində təhsil almışlar. Məktəbin hər sinfinin divarına çarmıxa çəkilmiş İsanın şəkli olan xaç bərkidilmişdir. 22 aprel 2002-ci ildə məktəb müdiriyyətinin keçirdiyi iclasda uşaqların valideyni (Soyle Lautsi) sinifdə dini simvolların, xüsusən, çarmıxın olması məsələsinə toxunaraq onların yığışdırılmasını təklif etmişdir. 27 may 2002-

ci ildə məktəb müdiriyyəti 10 səs lehinə, 2 səs əleyhinə və 1 səs bitərəf olmaqla siniflərdə dini simvolların saxlanılması barədə qərar çıxarmışdır. 22 iyul 2002-ci ildə Soyle Lautsi İtaliya Konstitusiyasının 3-cü (bərabərlik prinsipi) və 19-cu (din azadlığı) maddələrinə, Avropa Konvensiyasının 9-cu maddəsinə, həmçinin ictimai inzibati orqanların qərəzsizlik prinsipinə (Konstitusiyanın 97-ci maddəsi) istinad edərək sekulyarizm (dünyəvilik) prinsipinin pozulması ilə əlaqədar həmin qərardan Veneto İnzibati məhkəməsinə şikayət vermişdir. Təhsil naziri 30 aprel 1924-cü il tarixli 965 saylı kral dekretinin (orta məktəblərin daxili qaydaları) 118-ci və 26 aprel 1928-ci il tarixli 1297 saylı kral dekretinin (ibtidai təhsili tənzimləyən ümumi qaydalar) 119-cu maddələrinə əsaslanaraq, məhkəmə araşdırmasında dövlət məktəblərinin siniflərində çarmıxın olmasının qanuni olduğunu göstərmişdir. Belə ki, 1928-ci il dekretin 119-cu maddəsi hər bir sinifdə çarmıxın olmasını, 1924-cu il dekretin 118-ci maddəsi isə hər bir sinifdə kralın portretinin və çarmıxın olmasını nəzərdə tutmuşdur. İnzibati məhkəmə dövlətin dünyəvi xarakterə malik olması prinsipini nəzərə alaraq, bu məsələnin Konstitusiyaya uyğunluğunun yoxlanılması üçün Konstitusiya Məhkəməsinə müraciət etmişdir.

Konstitusiya Məhkəməsi qeyd olunan 118 və 119-cu maddələrin qanunda deyil, qayda statusu olan mətnlərdə ifadəsini tapdığını əsas götürərək, 15 dekabr 2004-cü il tarixli qərarla bu məsələnin araşdırılmasının onun predmetinə aid olmadığını göstərmişdir. İnzibati məhkəmə bunun əsasında 17 mart 2005-ci ildə şikayəti rədd edərək göstərmişdir ki, dövlətin dünyəvi xarakteri prinsipi Avropa və qərb demokratiyası hüquqi irsinin bir hissəsidir. Çarmıx, şübhəsiz, dini simvoldur, o, ayrılıqda katolikliyin deyil, bütövlükdə xristianlığın simvoludur, ona görə də digər konfessiyalar üçün istiqamət kimi xidmət edir. Özündə tarixi və mədəni simvolu da ehtiva edən çarmıx həmçinin İtaliya Konstitusiyasının əsasında duran dəyərlər sisteminin simvoludur. Məhkəmə habelə aşağıdakı motivləri əsas kimi götürmüşdür: 1) xristianlıq müasir dünyəvi dövlətin, o cümlədən, İtaliya dövlətinin əsasını yaradan dözümlülük, bərabərlik və azadlıq ideyalarını özündə cəmləşdirir; 2) xristianlığın əsas ünsürləri sayılan hər bir şəxsin azadlıq və toxunulmazlığı, insan hüquqlarının elan edilməsi ilə müasir dünyəvi dövlət arasında əlaqələri görmək lazımdır. Müasir dövlətin dünyəvi xarakteri Avropa tarixinin müxtəlif dönəm və mərhələlərində böyük dəyər hesabına əldə edilmiş və ona xristianlığın əsas dəyərlərinə az və ya çox şüurlu istinadlar yardım göstərmişdir. Ona görə də məhkəmənin yekun mövqeyinə görə müasir ictimai reallıqda çarmıx təkcə tarixi və mədəni inkişafın, xalqın özünəməxsusluğunun simvolu kimi deyil, həm də azadlıq, bərabərlik, insan ləyaqəti, dini dözümlülük və dövlətin dünyavi xarakterinin simvolu kimi qiymətləndirilməlidir.

Soyle Lautsi bu qərardan Ali İnzibati Məhkəməyə müraciət etmişdir. Ali Məhkəmə dövlət məktəblərinin siniflərində çarmıxın asılmasının hüquqi əsaslara malik olduğunu qeyd etməklə göstərmişdir ki, çarmıxa dövlətin müasir hüquq qaydasında müəyyən edilən, mühüm mənbələrini əks etdirməyə qadir olan vətəndaş dəyərlərinin, sekulyarizmin simvolu kimi baxılmalıdır. Soyle Lautsi ona münasibətdə Avropa konvensiyası müddəalarının pozulması əsası ilə Avropa Məhkəməsinə müraciət etmişdir. Avropa Konvensiyasının 1 saylı Protokolunun 2-ci maddəsinə əsasən heç bir şəxsin təhsil hüququndan imtina edilə bilməz. Dövlət

təhsil və tədris sahəsində öz üzərinə götürdüyü funksiyaları yerinə yetirərkən, valideynlərin öz dini və fəlsəfi baxışlarına müvafiq olan təhsil və tədrisi təmin etmək hüququna hörmət edir. Konvensiyanın 9-cu maddəsində isə göstərilmişdir ki, hər kəsin fikir, vicdan və din azadlığı hüququ vardır; bu hüquqa öz dinini və ya əqidəsini dəyişmək azadlığı, öz dininə və ya əqidəsinə həm təkbaşına, həm də başqaları ilə birlikdə etiqad etmək və açıq, yaxud şəxsi qaydada ibadəti, təlimləri, dini və mərasim ayinlərinin yerinə yetirmək azadlığı daxildir. Öz dininə və baxışlarına etiqad etmək azadlığı yalnız ictimai asayiş maraqları naminə, ictimai qaydanı, sağlamlığı, yaxud mənəviyyatı qorumaq üçün və ya digər şəxslərin hüquq və azadlıqlarını müdafiə etmək üçün qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olan məhdudiyyətlərə məruz qala bilər.

Avropa Məhkəməsinin Palatası Soyle Lautsinin işi üzrə qəbul etdiyi qərarda qeyd etmişdir ki, çarmıxın bir çox mənaları içərisində dini mənası daha güclüdür. Siniflərdə çarmıxın məcburi və nümayişkaranə surətdə mövcudluğu təkcə şagirdlərin dünyəvi baxışlarına zidd olmaqla qalmır, həm də qeyri xristian dininə mənsub və ya heç bir dinə etiqad etməyən şagirdlər üçün emosional qıcıqlandırıcı kimi çıxış edir. Siniflərdə konkret konfessiyaya məxsus simvolun məcburi nümayişi valideynlərin uşaqlarını öz etiqadlarına uyğun surətdə tərbiyə etmək və uşaqların etiqad etmək və ya etməmək hüququnu məhdudlaşdırır. Avropa Məhkəməsinin mövqeyinə görə təhsil və tədris sahəsində Konvensiyaya 1 saylı Protokolun 2-ci maddəsi prinsip etibarı ilə Konvensiyanın 9-cu maddəsinə münasibətdə xüsusi qanundur. Ən azından bu, 2-ci maddənin ikinci cümləsi ilə iştirakçı-dövlətin üzərinə həmin sahədə qəbul olunmuş funksiyaları yerinə yetirərkən valideynlərin bu cur təhsil və tədrisi öz dini və fəlsəfi etiqadlarına uyğun həyata keçirmək hüquqlarına hörmət etmək öhdəliyinə toxunan məsələyə aid olan həmin işə aiddir (bax: Böyük Palatanın "Folqere və digərləri Norveçə qarşı" iş üzrə qərarı). Dövlətlər müxtəlif din, əqidə və inamlara etiqad edilməsini neytral və qərəzsiz surətdə təmin etməyə borcludurlar. Onların funksiyası ictimai qaydanın, demokratik cəmiyyətdə, xüsusən, əks qütbdə duran qruplar arasında dini harmoniya və dözümlülüyün qorunmasına yardım etməkdən ibarətdir (bax: Böyük Palatanın "Leyla Şahin Türkiyəyəy qarşı" iş üzrə qərarı). Konvensiyaya 1 saylı Protokolun 2-ci maddəsinin ikinci cümləsi dövlətlərə birbaşa və ya dolayısı ilə dini və fəlsəfi xarakterli informasiya, biliklərin tədris və ya təhsil yolu ilə yaymalarına mane olmur. O, hətta valideyinlərə bu cür təhsil və ya tədrisin məktəb proqramına daxil edilməsinə qarşı etiraz etməyə icazə vermir. Digər tərəfdən, nə qədər ki, onun məqsədi təhsildə plüralizm imkanının təminindən ibarətdir, o, dövlətdən tələb edir ki, tədris və təhsil sahəsində funksiyalarını həyata keçirərkən məktəb proqramına daxil edilmiş informasiya və ya biliklərin obyektiv, tənqidi və plüralistik qaydada, hər cür prozelitizmdən azad, sakit şəraitdə şagirdlərin, xüsusən, dinə münasibətdə tənqidi təfəkkürünün inkişaf etdirməsinə yönəlməsinin qayğısına qalsın. Dövlətə, valideyinlərin dini və fəlsəfi baxışlarına hörmətsizlik kimi qiymətləndirilə bilən informasiya yaymaq məqsədi güdmək qadağan olunur. Bu, dövlətin keçməli olmadığı səddir (3).

Müasir dövrdə Azərbaycan cəmiyyətində sağlam ictimai şüurun formalaşmasında islam və digər ənənəvi dinlərin əhəmiyyəti getdikcə artır.

Dünyada barışıq və ictimai rifahın əldə olunması üçün bütün konfessiyaların əməkdaşlığı zəruridir və bu, bəlkə də bəşəriyyətin müvəffəq ola biləcyi ən ibrətamiz nailiyyətlərdən biri ola bilər. Fikrimizcə, Azərbaycan Respublikasında dövlət müstəqilliyinin bərpasından sonra belə modelin yaradılması istiqamətində xeyli işlər görülmüş və müəyyən nümunələr yaradılmışdır. Ötən müddət ərzində cəmiyyətimizin mənəvi-dini həyatında müsbətə doğru əsaslı dəyişikliklər baş vermişdir. Tarixən tolerant ölkə olan Azərbaycanda müsəlmanlar ilə yanaşı, katoliklər, provoslavlar, yəhudilər və digər dinlərə etiqad edən insanlar yaşayır. Hazırda ölkəmiz tolerantlıq ənənələrini yaşadan və beynəlxalq səviyyədə təbliğ edən nümunəvi örnək modelini özündə birləşdirir.

Azərbaycan Respublikasında din və dövlət münasibətlərinin digər səciyyəvi cəhəti dövlətin dini qurumlara diqqət və qayğı ilə yanaşmasıdır. Azərbaycan Respublikasının Prezidenti cənab İ.H.Əliyev ölkənin ikinci ən böyük dini icması olan Pravoslav xristian icmasına təbrikində demişdir: «Yüz illər boyu yüksək mənəvi-əxlaqi dəyərlərin və etnik-dini tolerantlıq ənənələrinin qorunub saxlandığı Azərbaycan cəmiyyətində ayrı-ayrı xalqlar, dinlər və etiqadlar arasında qarşılıqlı hörmət, etimad və qardaşlıq münasibətləri mövcud olmuşdur. Biz bunu milli dövlətçiliyimizin böyük uğuru kimi qiymətləndirir, tarixi-mənəvi irsin və etnik mədəni müxtəlifliyin qorunmasını, multikulturalist ənənələrə söykənən ictimai münasibətlərin təbliğini və təşviq edilməsini fəaliyyətimizin başlıca istiqamətlərindən biri hesab edirik» (2).

Azərbaycan Respublikası Konstitusiyasının 48-ci maddəsinin I hissəsində hər kəsin vicdan azadlığı hüququna malik olması təsbit edilmişdir. Konstitusiyaya əsasən vicdan azadlığı hüququnun məzmununa aşağıdakılar daxildir: 1) hər kəsin dinə münasibətini müstəqil müəyyənləşdirməsi; 2) hər kəsin hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etməsi; 3) hər kəsin hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etməməsi; 4) hər kəsin dinə münasibəti ilə bağlı əqidəsini ifadə etməsi və yayması.

Konstitusiyaya əsasən vicdan azadlığı hüququnun aşağıdakı hüdudlarını müəyyən etmək mümkündür:

1) Konstitusiyanın 18-ci maddəsinin II hissəsi insan ləyaqətini alçaldan və ya insanpərvərlik prinsiplərinə zidd olan dinlərin (dini cərəyanların) yayılmasını və təbliğini qadağan edir. Başqa sözlə, hər hansı dinin (dini cərəyannın) yayılması və təbliğinin şərti odur ki, onlar insanlığa, insanpərvərlik hisslərinə zərər yetirməsin, dinlər arasında nifaq salmasın;

2) Dini mərasimlərin yerinə yetirilməsi ictimai qaydanı pozmamalı və ictimai əxlaqa zidd olmamalıdır (Konstitusiyanın 48-ci maddəsinin III hissəsi);

3) Dini etiqad hüquq pozuntusuna səbəb olmayacaq dərəcədə azaddır. Konstitusiyanın 48-ci maddəsinin IV hissəsinə görə dini etiqad və əqidə hüquq pozuntusuna bəraət qazandırmır. Çərçivənin aşılması hüquq pozuntusu sayılır və müvafiq hüquqi məsuliyyətə səbəb olur;

4) Heç kəs öz dini etiqadını və əqidəsini ifadə etməyə (nümayiş etdirməyə), dini mərasimləri yerinə yetirməyə və ya dini mərasimlərdə iştirak etməyə məcbur edilə bilməz (Konstitusiyanın 48-ci maddəsinin V hissəsi). Bu müddəa dini etiqadın və dini əqidənin ifadə formalarının zahiri məhdudiyyət hüdudlarını

nəzərdə tutur. Başqa sözlə, vicdan azadlığının hər hansı məcburiyyətdən kənar realizəsinin zəruriliyini ehtiva edir. Əks təqdirdə, yəni hər hansı şəxsin öz dini etiqadını və əqidəsini ifadə etməyə (nümayiş etdirməyə), dini mərasimləri yerinə yetirməyə və ya dini mərasimlərdə iştirak etməyə məcbur edilməsi ən sərt hüquqi məsuliyyətə – cinayət məsuliyyətinə səbəb olacaqdır (CM-in 167-1-ci maddəsi).

Azərbaycan Respublikası Konstitusiyası hər bir hüquq və azadlıq kimi vicdan azadlığına da təminat verir. Əsas Qanun əslində vicdan azadlığı hüququnun çərçivələrini müəyyən etməklə bu hüququ ona edilən qəsdlərdən mühafizə edir. Bu cür mühafizə bir növ hər bir kəsin öz vicdan azadlığı hüququna tətbiq etdiyi qadağa mənasını ifadə edir. Başqa sözlə, hər kəs Konstitusiyanın cızdığı məhdudiyyət xəttini keçməməklə vicdan azadlığı hüququnu da təmin etmiş olur. Vicdan azadlığı hüququnun digər hüquqi təminatı Konstitusiyanın 26-cı maddəsində təsbit olunmuşdur. Bu norma hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə (o cümlədən, məhkəmə yolu ilə) öz hüquqlarını və azadlıqlarını müdafiə etmək hüququnu nəzərdə tutur. Vicdan azadlığı hüququna Konstitusiyanın verdiyi üçüncü təminat bu hüquqa edilən qəsdlərin hüquqi məsuliyyət və onun ən ağır növü olan cinayət məsuliyyətini doğurmasıdır.

## Ədəbiyyat:


1. 2017-ci ilin Azərbaycan Respublikasında "İslam Həmrəyliyi İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı / http://www.president.az/articles/22420
2. Azərbaycanın pravoslav xristian icmasına / http://www.president.az/articles/7978
3. Azərbaycan Respublikası Ali Məhkəməsinin 2011-ci il 4 saylı Bülleteninə Əlavə. Bakı, 2011, 36 s.
4. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 21 oktyabr 2005-ci il tarixli qərarı / http://www.constcourt.gov.az/decisions/119
5. Azərbaycan Respublikasının Konstitusiyası / http://www.e-qanun.az/framework/897
6. Mehriban Əliyeva Roma Papası Fransis ilə görüşüb / http://www.heydar-aliyev-foundation.org/az/search/s/vatikan/SearchContent_page/2
7. Seyidzadə Azərbaycana qarşı / http://e-qanun.az/files/framework/data/21/f_21266.htm



**Алиев Н.К.**

Доцент кафедры «Юриспруденции» Национальной Авиационной Академии, доктор юридических наук


**Свобода совести в контексте отношений между государством и религией**


Статья посвящена понятию права на свободу совести, его конституционно-правовых гарантий, предел и ограничений. На основе законодательств и судебной практики ряда европейских стран, а также позиции Европейского суда по правам человека рассматривается свобода совести, регулирование отношений между государством и религией.



***Ключевые слова***: свобода совести, государства, религия, права, конституция, законодательства, суд.



**Aliyev N.K.**

Associate professor of the Department of "Jurisprudence" of the National Aviation Academy, doctor of laws


**Freedom of conscience in the context of relations between the state and religion**


The article is devoted to the concept of the right to freedom of conscience, its constitutional and legal guarantees, limits and limitations. Based on the legislation and jurisprudence of several European

countries, as well as the position of the European Court of Human Rights, freedom of conscience, regulation of relations between the state and religion is considered.
***Key words***: *freedom of conscience, state, religion, rights, constitution, legislation, court.*